# İrəvan kişi gimnaziyasının tarixinin tədqiqi

*XIX əsrin sonu - XX əsrin əvvəllərində İrəvanda maarifçilik mühitinin və təhsil müəssisələrinin hərtərəfli tədqiqi və təbliğində Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmovun mühüm xidmətləri vardır. Onun "İrəvan Müəllimlər Seminariyası və onun məzunları" (2022) və "İrəvan kişi gimnaziyası və onun azərbaycanlı məzunları" (2024) monoqrafiyaları nəinki Qərbi Azərbaycan, ümumiyyətlə, Azərbaycan təhsil və pedaqoji fikir tarixinə dəyərli töhfədir. İrəvanın təhsil tarixi ilə bağlı müəyyən araşdırmalar aparılsa da, kişi gimnaziyasının tarixinin sistemli araşdırılmasına ciddi ehtiyac duyulurdu. Digər təhsil müəssisələrindən fərqli olaraq məhz İrəvan kişi gimnaziyası vasitəsilə azərbaycanlılar Rusiya və Avropanın qabaqcıl ali məktəblərində dünya elmi ilə tanış olmuş, ali təhsilli ziyalı kimi vətənə dönərək millətə xidmət etmişlər. Bu səbəbdən də kişi gimnaziyası İrəvanda maarifçiliyin inkişafında, yüksək təhsil görmüş azərbaycanlıların yetişməsində xüsusi rol oynamışdır.*




**Professor Fərrux Rüstəmovun "İrəvan kişi gimnaziyası və onun azərbaycanlı məzunları"** *(Bakı: Elm və təhsil, 2024, 480 s.)* monoqrafiyası İrəvandakı qəza məktəbinin, progimnaziyanın və gimnaziyanın təşəkkülü və inkişaf tendensiyalarını dərindən öyrənmək baxımdan elmi-nəzəri və praktik əhəmiyyəti, fundamentallığı ilə seçilən tədqiqat əsəridir. Monoqrafiyada İrəvan gimnaziyasının təşəkkülü və inkişafı Cənubi Qafqazdakı maarifçilik hərəkatı kontekstində təhlil və tədqiq edilir, inkişaf dinamikasının əsas istiqamətləri müəyyənləşdirilir. Monoqrafiya çox zəngin elmi mənbələr, arxiv sənədləri, İrəvan qubernatorunun və Qafqaz Tədris Dairəsinin popeçitelinin hesabatları əsasında yazılmış, xeyli fakt və hadisə ilk dəfə təhlil edilərək elmi dövriyyəyə daxil edilmişdir.

Professor F.Rüstəmov İrəvan kişi gimnaziyasının tarixinin tədqiq edilməsinin 5 mühüm səbəbini aşağıdakı kimi müəyyənləşdirir:

***Birincisi,*** İrəvan kişi gimnaziyasının maraqlı tarixi var. Belə ki, İrəvan qəza məktəbinin əsasında İrəvan kişi progimnaziyası, onun əsasında 1881-ci ildə İrəvan kişi gimnaziyası təşkil olunmuşdur. Fəaliyyəti ərzində İrəvan quberniyasında yaşayan azərbaycanlıların orta təhsilə cəlb edilməsində və yerli əhali arasında maarifçiliyin inkişafında müstəsna xidmətləri olmuşdur.

***İkincisi,*** İrəvan kişi gimnaziyasının təsiri ilə quberniya ərazisində azərbaycanlıların təhsil aldıqları xeyli məktəblər açılmışdır.

***Üçüncüsü,*** İrəvan kişi gimnaziyası azərbaycanlıların Rusiyanın və Avropa ölkələrinin universitetlərində ali təhsil almasını təmin etmişdir.

***Dördüncüsü,*** Azərbaycan maarifçilərinin tanınmış nümayəndələri olan Mirzə Ələkbər Elxanov (1881-1885), Firidun bəy Köçərli (1885-1895), İsmayıl bəy Məmməd bəy oğlu Şəfibəyov (1896-1918) Mirzə Məmməd Şeyxzadə (1907) və Şeyx Əbusəttar Kazımovun (1908-1918) adı və fəaliyyəti İrəvan kişi gimnaziyası ilə bağlıdır. Onlar azərbaycanlı şagirdlərin təfəkkürünün avropalaşdırılmasında, yeni düşüncə tərzinin formalaşdırılmasında, bölgədə maarifin, təhsil-tərbiyə mədəniyyətinin yayılmasında yaxından iştirak etmiş, pedaqoji, ictimai-mədəni fəaliyyətləri ilə milli mədəniyyətimizi təbliğ etmiş, rus uşaqlarının Azərbaycan dilini öyrənmələrinə vəsilə olmuşlar.

***Beşincisi,*** İrəvan kişi gimnaziyası çarizmin ruslaşdırma, xristianlaşdırma siyasətinə baxmayaraq, millətin taleyində əhəmiyyətli rol oynamış, Azərbaycan ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri olan Əli bəy Hüseynzadənin arzuladığı türk qanlı, müsəlman etiqadlı, firəng düşüncəli, Avropa qiyafəli yeni nəsil formalaşdırılmışdı.

Professor Fərrux Rüstəmovun "İrəvan kişi gimnaziyası və onun azərbaycanlı məzunları" giriş, 5 fəsil, 44 paraqrafdan, son söz əvəzi və ya Azərbaycan təhsilinin parlaq səhifəsindən və istifadə edilmiş zəngin ədəbiyyat siyahısından ibarətdir.

Monoqrafiyaya AMEA-nın müxbir üzvü, professor, Əməkdar elm xadimi Misir Mərdanov "Qərbi Azərbaycanın təhsil tarixinə dəyərli töhfə" adlı ön söz yazmışdır. Ön sözdə professor F.Rüstəmovun Azərbaycan təhsil tarixi ilə yanaşı, Qərbi Azərbaycanın maarifçilik və təhsil tarixi ilə bağlı ciddi tədqiqatlar apardığı xüsusi olaraq vurğulanır. "İrəvan kişi gimnaziyası və onun azərbaycanlı məzunları" kitabının məziyyətləri təhlil edilir.

Professor F.Rüstəmov İrəvan kişi gimnaziyasının yaranmasına qədər olan dövrün ictimai-siyasi hadisələrini ümumiləşdirilmiş formada təhlil edərək XIX əsrdə İrəvanda fəaliyyət göstərən azərbaycanlıların həyatında mühüm rol oynayan dünyəvi təhsil müəssisələrini də tədqiqata cəlb edir. Məsələyə bu aspektdən yanaşan müəllif "Cənubi Qafqazda qəza məktəblərinin təşəkkülü və inkişafı" adlı I fəsildə İrəvan ikisinifli qəza məktəbinin, üçsinifli qəza məktəbinə çevrilməsi, məktəbin kitabxanası, nəzarətçiləri (müdirləri), fəxri qəyyumları, fənn müəllimlərinin siyahısı, pravoslav məzhəbi üzrə müəllimləri haqqında elmi əhəmiyyət kəsb edən məlumatlar öz əksini tapır, İrəvan qəza məktəbinin Azərbaycan dili və şəriət müəllimlərindən Mirzə Molla Tağı Mahmud oğlu və Mirzə Ələkbər Elxanov bağlı əldə etdiyi qısa tərcümeyihalları ilə oxucuları tanış edir.

II fəsli "İrəvan üçsinifli qəza məktəbinin progimnaziya çevrilməsi" adlanır. Qeyd etmək yerinə düşər ki, istər İrəvan ikisinifli qəza məktəbi, istər İrəvan üçsinifli qəza məktəbi, istərsə də İrəvan kişi progimnaziyası İrəvan kişi gimnaziyasının yaranmasında baza rolunu oynamışdır. II fəsildə İrəvan kişi progimnaziyasının yaranması, fəaliyyəti geniş şəkildə təhlil süzgəcindən keçirilir. Həmçinin İrəvan kişi progimnaziyasının pansionu, kitabxanası, tərbiyəçi və sinif tərbiyəçilərinin köməkçiləri haqqında maraqlı məlumatlar qeyd olunur. Bununla yanaşı, İrəvan kişi progimnaziyasının ilahiyyat və dil müəllimləri, inspektorları və katibləri, fənn müəllimləri, həkimləri və nəğmə müəllimləri haqqında məlumatlar da diqqətdən yayınır. 1869-1880-ci illər üzrə İrəvan kişi progimnaziyasında şagirdlərin inkişaf dinamikası və şagirdlərin siniflər üzrə bölgüsünün cədvəlləşdirilmiş formada verilir.

İrəvan kişi gimnaziyasının Azərbaycan təhsil tarixində rolu monoqrafiyanın "İrəvan kişi gimnaziyasının yaranması, inkişafı və ermənilər tərəfindən bağlanılması" adlı III fəslində araşdırılmış, progimnaziyanın gimnaziyaya çevrilməsinə nəzər salınmış, bu barədə Dövlət Şurasının qərarı da verilmişdir. Bu fəsil 22 paraqrafdan ibarətdir. Hər paraqrafda İrəvan kişi gimnaziyasının bu və ya digər sahəsi haqqında məlumat verilir: İrəvan kişi progimnaziyasının gimnaziyaya çevrilməsi, gimnaziyanın tədris binası təhsilin məzmunu və metodları, Pedaqoji Şurası, şagird kontingenti, Azərbaycan dili və şəriət fənlərinin tədrisi, gimnaziyada tatar *(Azərbaycan - İ.B.)* dili proqramı (Программа татарского языка в Эриванской гимназии) və s.

"İrəvan kişi gimnaziyası və onun məzunları" monoqrafiyasının IV fəsli gimnaziyanın direktorlarına həsr olunmuş, hər biri haqqında ətraflı oçerklər verilmişdir. Gimnaziyanın 5 direktoru olmuşdur: Vladimir İosifoviç Brajnikov, Qriqori Alekseyeviç Boqolyubovski, Feodor Yefimoviç Kotılevski, Fyodr İliç Stasenko və Eduart Aleksandroviç Çoqaşvili. Onların gimnaziyanın fəaliyyətinə verdikləri pedaqoji töhfələrə də toxunulmuşdur.

Monoqrafiyanın V fəslində bilavasitə İrəvan kişi gimnaziyasının azərbaycanlı müəllimləri və məzunlarından bəhs edilir. Burada ilk olaraq azərbaycanlı müəllimlərdən Mirzə Ələkbər Elxanov, Firidun bəy Köçərli və İsmayıl bəy Şəfibəyov haqqında oçerklər, gimnaziyanın 92 məzunu, eləcə də İrəvan gimnaziyasında təhsil almayan ali təhsilli 14 irəvanlı haqqında məlumat verilir.

İrəvan kişi gimnaziyasının məzunlarından ictimai-siyasi xadim Əziz Əliyevin, akademiklər Mustafa bəy Topçubaşovun, Əhməd Rəcəblinin və digər işıqlı ziyalıların Azərbaycanda elmin, mədəniyyətin, təhsilin inkişafında müstəsna xidmətləri olmuşdur.

Professor F.Rüstəmovun "İrəvan kişi gimnaziyası və onun məzunları" monoqrafiyası zəngin arxiv materialları əsasında yazılıb, gimnaziyanın fəaliyyəti fakt və rəqəmlərin, rəsmi dövlət sənədlərinin dili ilə izah edilib. Monoqrafiyada arxiv sənədlərinin surətlərinin, müxtəlif şəkillərin, məzunların attestatlarının surətlərinin və şəxsi fotolarının verilməsi onun elmi dəyərini daha da artırır. Kitab həm də yüksək poliqrafik formada çap edilib. Onu da qeyd edək ki, Fərrux Rüstəmov Qərbi Azərbaycan təhsili sahəsində apardığı silsilə tədqiqatlara, xüsusilə "İrəvan Müəllimlər Seminariyası və onun məzunları" (2022), "İrəvan kişi gimnaziyası və onun azərbaycanlı məzunları" (2024) monoqrafiyalarına görə Azərbaycan Mətbuat Şurasında "Firidun bəy Köçərli" adına mükafata layiq görülüb.

Yekun olaraq qeyd etmək yerinə düşər ki, professor F.Rüstəmovun "İrəvan kişi gimnaziyası və onun məzunları" kitabı Qərbi Azərbaycanın təhsil tarixinin külli halında araşdırılmasında əsas mənbələrdən biridir.

**İbrahim BAYRAMOV,**
**ADPU-nun professoru,**
**filologiya elmləri doktoru, Əməkdar müəllim.**

Respublika .- 2025.- 13 mart (№ 55).- S.10.